# AZƏRBAYCAN RESPUBLİKASI
# SƏHİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI
# QƏRAR
# № 18

**Bakı şəhəri** 17 mart 2016-cı il

**"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini, 19-cu və 22-ci hissələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. Qərarın icrasına nəzarət nazir müavini Abbas Vəlibəyova həvalə edilsin.

**Kollegiyanın sədri,**
**Nazir** **Oqtay Şirəliyev**

Kollegiyanın məsul katibi Nərgiz Şahbazova

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "17" mart " 2016-cı il tarixli 18 nömrəli əmri ilə təsdiq edilmişdir.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası haqqında Əsasnamə

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra – "Nazirlik") Elmi-Tibbi Şurası (bundan sonra – "Şura") nazirliyin ictimai əsaslarla fəaliyyət göstərən elmi sahədə məşvərətçi orqandır.
1.2. Şuranın əsas məqsədi elm, təhsil və tibb müəssisələrinə elmi-metodiki rəhbərlik etməkdən ibarətdir.
1.3. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarını, nazirliyin qərarlarını, əmr, sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

### 2. Elmi-Tibbi Şuranın əsas vəzifələri

2.1. Elmi-Tibbi Şuranın əsas vəzifələri aşağıdakılardır:

2.1.1. Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə almaqla Azərbaycan Respublikasında tibb elminin əsas inkişaf istiqamətlərini müəyyən etmək;
2.1.2. Nazirliyin elmi-tədqiqat və təhsil müəssisələrinin elmi fəaliyyətinin təşkilinə elmi-metodiki rəhbərlik etmək;
2.1.3. tibb təhsilinin istiqamət və ixtisaslar üzrə hazırlanmış tədris planları, fənn proqramları, dərslik və tədris-metodik vəsaitlərinə rəy vermək;
2.1.4. Nazirliyin elmi-tədqiqat müəssisələrində aparılan elmi-tədqiqat işlərini planlaşdırmaq və əlaqələndirmək;
2.1.5. müasir tibb elmin inkişafının tələblərinə uyğun nəşr edilən elmi jurnalların, tematik məcmuələrin, pedaqoji, o cümlədən tibb təhsili problemləri ilə bağlı ədəbiyyatı haqqında məlumatı təhlil etmək, onların yönümünün və məzmununun yaxşılaşdırılmasına dair təkliflər vermək;
2.1.6. Azərbaycan Respublikasında tibb elminin inkişaf proqnozu, eləcə də səhiyyə tələbatlarını nəzərə alaraq ali ixtisaslı elmi kadrların hazırlanmasının planlaşdırmasında iştirak etmək;
2.1.7. tibb elmi kadrların hazırlanması məqsədi ilə doktorantura və dissertanturaya illik qəbul planına təklifləri vermək;
2.1.8. Nazirliyin müvafiq struktur bölmələri ilə birgə tibb sahəsində fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrinin rəhbərlərinin illik hesabatının dinlənilməsində və həmin müəssisələrin fəaliyyətinin monitorinqinin həyata keçirilməsində iştirak etmək, onların işinin təkmilləşdirilməsi haqqında tövsiyələr vermək;
2.1.9. Nazirliyin tabeliyində olan elm və təhsil müəssisələrinin elmi-tədqiqat işlərinin planlaşdırılmasında və qiymətləndirilməsində iştirak etmək, alınmış elmi nəticələrin təcrübədə tətbiq edilməsi barədə rəy vermək;
2.1.10. Azərbaycan Milli Elmlər Akademiyası ilə sıx əməkdaşlıq etmək;

2.1.11. Şuranın müxtəlif istiqamətlər üzrə il ərzində gördükləri işlər barədə məlumat vermək, innovasion elmi-texniki layihələri, fundamental və kəşfiyyat tədqiqatlarına dəstək vermək;
2.1.12. Aktual istiqamətlərdə elmi-tədqiqatların genişlənməsi, eləcə də qeyri-perspektiv istiqamətlər üzrə tədqiqatların dayandırılmasının məqsədəuyğunluğu və zəruriliyi barədə qərar qəbul etmək;
2.1.13. Tibb praktikasında yeni profilaktika, diaqnostika, müalicə və reabilitasiya metodlarının, təşkilatı iş formalarının istifadə olunmasının məqsədəuyğunluğu barədə təkliflər vermək;
2.1.14. Nazirliyin elmi-tədqiqat müəssisələrinin strukturunun təkmilləşməsi üzrə təkliflər hazırlamaq;
2.1.15. Yeni informasiya-kommunikasiya və pedaqoji texnologiyalardan tədris prosesində istifadə edilməsi ilə bağlı hazırlamaq;
2.1.16. İnnovasiyon elmi-texniki layihələri, fundamental və kəşfiyyat tədqiqatlarına dəstək vermək;

## 3.Şuranın hüquqları

3.1. Şuranın aşağıdakı hüquqları vardır:
3.1.1. öz səlahiyyətləri daxilində elmi-tədqiqat və tibb müəssisələrindən zəruri məlumatlar almaq;
3.1.2. elm, təhsil və tibb müəssisələrinin mütəxəssislərini öz iclaslarına dəvət etmək;
3.1.3. nazirlik tərəfindən müəyyənləşdirilmiş digər hüquqları həyata keçirmək

## 4.Şuranın fəaliyyətinin təşkili

4.1. Şuranın tərkibi (sədri və digər üzvlər) Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilir.
4.1.1.Şurada elmi istiqamətlər üzrə bölmələr təşkil olunur Şuranın tərkibinə respublikanın tanınmış alimləri və yüksək ixtisaslı mütəxəssislər daxil edilir.
4.2. Şuranın sədri:
4.2.1. Şuranın işini təşkil edir və ona rəhbərliyi həyata keçirir.
4.2.2. Şuranın fəaliyyəti ilə bağlı sənədləri imzalayır.
4.2.3. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir və keçirilən iclaslarda sədrlik edir.
4.2.4. Şuranın səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün Şuranın iclaslarına çıxarır.
4.2.5. Şuranı təmsil edir.
4.3. Şuranın üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:
4.3.1. Şuranın iclaslarında və fəaliyyətində iştirak etmək;
4.3.2. Şuraya daxil olan sənədlər və müraciətlərlə əlaqədar hərtərəfli, tam və obyektiv araşdırma aparmaq.
4.3.3. Şuraya daxil olan müraciətlərlə əlaqədar Şuranın adından qərarların qəbul edilməsi ilə bağlı səsvermədə iştirak etmək;
4.3.4. Şuranın iclaslarının protokollarını imzalamaq;
4.3.5. Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmaq;
4.3.6. Şuranın səlahiyyətlərinə aid təşkilatı məsələlər barədə təkliflər vermək.